**“Türk dünyası: ortaq tarixi - mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış”**
**mövzusunda I Beynəlxalq elmi konfrans**
**16-17 noyabr 2023, Bakı Dövlət Universiteti**

2023-ci il noyabrın 16-17-də Bakı Dövlət Universitetidə **“Türk dünyası: ortaq tarixi - mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış”** mövzusunda I Beynəlxalq elmi konfrans keçiriləcəkdir. Elmi konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin “Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın” icra edilməsi barədə” 28.02.2023 – cü il tarixli 3 - 29/3 - 2 - 78 F/2023 nömrəli əmri əsasında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin 2023-cü il üçün tədbirlər planına salınmışdır. Konfransa professor-müəllim heyəti, elmi işçilər, doktorant və dissertantlar dəvət edilir. Konfransda dəyərli tədqiqatçıların yeni və maraqlı araşdırmalarını gözləyirik.

**Mühüm tarixlər:**
Konfransın elanı - 21 iyun 2023
Tezislərin göndərilməsi üçün son tarix – 21 sentyabr 2023
Qəbul olunan tezislərin elanı – 2 oktyabr 2023
Konfransın keçirilmə tarixi - 16-17 noyabr 2023

**Konfransın mövzuları:**

- Türk xalqlarının dövlətçilik tarixi ümumtürk tarixi kontekstində
- Türk dünyası tarixində Azərbaycanın yeri
- Türk dünyası: ortaq tarixi - mədəni dəyərlər
- Türk dünyası XXI əsrdə: müasir reallıqlar və gələcəyə baxış
- Türk dövlətlərin əməkdaşlığında yeni mərhələ - Türk Dövlətləri Təşkilatının yaranması və fəaliyyəti
- Türk xalqlarının ortaq tarixi - mədəni dəyərləri elmi əsərlərdə və bədii ədəbiyyat nümunələrində
- Ermənistanın Azərbaycana ərazi iddiaları: ərazi münaqişələri, tarixi saxtalaşdırmalar, informasiya mübarizəsi
- Vətən müharibəsində qazanılan qələbənin Ümumtürk tarixi üçün əhəmiyyəti və nəticələri
- Türk dünyasının mədəniyyət paytaxtı Şuşanın tarixi maddi-mədəniyyət abidələri və onların bərpası
- İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzura qayıdış və bərpa – quruculuq işləri
- Müstəqillik illərində Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə siyasi, iqtisadi və mədəni əlaqələri
- Müstəqillik illərində Azərbaycan Respublikasının Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan Respublikaları ilə siyasi, iqtisadi və mədəni əlaqələri

**Konfransda iştirak şərtləri:**

- Konfransa təqdim edilən mövzular konfransın tematikasına uyğun olmalıdır.
- Konfransın əsas işçi dili Azərbaycan dilidir, lakin məruzələr digər türk ləhcələri, ingilis və rus dillərində də dinləniləcəkdir.
- Tezislər Azərbaycan dili, digər türk ləhcələri, ingilis və rus dillərində qəbul ediləcək (ingilis dilində tərcüməsi ilə birlikdə; ingilis dilində olan məruzələr üçün Azərbaycan dilində tərcüməsi ilə birlikdə).
- Plagiat aşkarlanan tezislər qəbul edilməyəcəkdir.

- Konfransa təqdim edilən tezislər Elmi Komitə tərəfindən müsbət rəy verildikdən sonra qəbul olunacaqdır.
- Alimlik dərəcəsi və elmi adı olmayan gənc müəlliflərin adının yanında elmi rəhbərin adı, elmi adı, alimlik dərəcəsi və elektron poçtu göstərilməlidir. Elmi rəhbərlərin rəyi skan edilib məktuba əlavə edilməlidir. Məlumatların səhihliyinə və araşdırmanın orginallığına görə elmi rəhbər və müəllif məsuliyyət daşıyır.
- Təşkilat Komitəsinin qoyduğu tələblərə uyğun olmayan tezislər qəbul edilməyəcəkdir.
- Konfransda məruzə etməyənlərin tezisləri dərc edilməyəcəkdir.
- Konfransa göndərilən tezislər hər kəsin şəxsi elektron ünvanından, Vörd faylında, fayla müəllifin soyadı verilərək göndərilməlidir.

**Tezisin tərtibi qaydaları:**

- Mətn ölçüləri: Times New Roman, ölçü 12, interval 1.
- Mövzu və müəllif barədə məlumatlar mərkəzdə yazılır: başlığın hamısı böyük hərflərlə (Bold), müəllifin adı, soyadı tünd rəngdə (Bold), aid olduğu qurum, alimlik dərəcəsi, elmi adı və elektron poçt ünvanı göstərilməlidir.
- Açar sözlər: məruzənin adına və məzmununa uyğun iki dildə 5-6 əsas anlayış.
- Mətn ən az 1000, ən çox 3000 söz (tezisin tərcüməsi və ədəbiyyat siyahısı daxil olmadan) həcmində olmalıdır. Tezisdə mövzu üzrə əsas ideyalar, aktuallığı, elmi əhəmiyyəti, əldə olunan yeniliklər və nəticələr yığcam əhatə edilməlidir.
- Tezisə əlavə kimi verilən cədvəl və şəkillər cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 kimi ardıcıllıqla sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan Respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən)
- Tezisdə cədvəl və sitatlar ümumi həcminin yalnız 25%-ni əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir və araşdırma olmalıdır.
- İstifadə edilən ədəbiyyat və internet resursları əlifba sırası ilə düzülməlidir, ədəbiyyatların müəllifi, adı, nəşr ili və yeri, ümumi səhifəsi dəqiq göstərilməlidir. İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan əsərin və ya məlumatın müəllifi, məqalənin ya məlumatın başlığı, hiperiqtibas və istinad tarixi yazılmalıdır.
- Tezislər tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

**Əlaqə**: +99412-538-22-93 (saat 9.00-17.00);
kamalanacafova@bsu.edu.az
knajafova69@mail.ru

**Ünvan:** AZ1148, Azərbaycan Respublikası, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi: III korpus, 921-ci otaq

***Hörmətlə, Təşkilat Komitəsi***

**NÜMUNƏ**

**MƏRUZƏNİN ADI 3 SƏTİRDƏN ÇOX OLMAMALI, KONKRET VƏ AYDIN OLMALIDIR**

**Müəllifin Adı və Soyadı açıq şəkildə yazılmalıdır.**
Müəllifin çalışdığı müəssisənin (təşkilatın) adı, vəzifəsi və elmi dərəcəsi göstərilməlidir.
______@_____

***Açar sözlər:*** *məruzənin adına və məzmununa uyğun 5-6 əsas anlayış*

Tezisin mətni ən az 1000, ən çox 3000 söz (tezisin tərcüməsi və ədəbiyyat siyahısı daxil olmadan) həcmində olmalıdır. Tezisdə mövzu üzrə əsas ideyalar, aktuallığı, elmi əhəmiyyəti, əldə olunan yeniliklər və nəticələr yığcam əhatə edilməlidir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.
2. Azərbaycan tarixi. 7 cilddə, IV c.. Bakı: Elm, 2000, 456 s.
3. Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.
4. Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.
5. Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmipraktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.
6. Şuşa şəhəri işğaldan azad edildi! // https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540. İstinad tarixi: 20.12.2020